# Qarabağı tərəqqiyə aparan zəfər yolu




**_Azərbaycan xalqı 30 il ərzində erməni faşizminin ələ keçirdiyi torpaqların işğalı ilə heç vaxt barışmadı. Ümummilli lider Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirən dövlətimizin başçısı İlham Əliyev elə bu məqsədlə də prezidentlik fəaliyyəti dövründə müxtəlif sahələrdə davamlı islahatlar apardı, mövcud potensialın, ilk növbədə, iqtisadi müstəqilliyin möhkəmləndirilməsini diqqət mərkəzində saxladı, ordumuzun gücləndirilməsinə, modernləşdirilməsinə xüsusi önəm verdi._**

Silahlı qüvvələrimiz isə öz gücünü hələ Vətən müharibəsindən əvvəl nümayiş etdirmişdi. Belə ki, hərbçilərimiz 2016-cı ilin aprelində döyüş əməliyyatlarının gedişində öz imkanlarını çox məhdud şəkildə göstərərək, işğal altındakı ərazilərin bir hissəsini düşməndən təmizləmişdi. Bundan başqa, ordumuz 2018-ci ilin mayında Naxçıvan Muxtar Respublikası ilə Ermənistanın sərhədində, dövlətimizin başçısının vurğuladığı kimi, qan tökülmədən əməliyyat aparmaq gücümüzü təsdiqləmişdi. Lakin bu, erməni faşizminə dərs olmamışdı. Ermənistan rəhbərliyi sülh danışıqlarını pozmağa hesablanan "Qarabağ Ermənistandır və nöqtə" avantürası səsləndirməklə, əslində, işğalçılıq siyasətini davam etdirmək istəyini bildirmişdi. Ermənistan müdafiə nazirinin Amerikada Ermənistanın yeni ərazilər uğrunda yeni müharibəyə hazırlaşması barədə bəyanatı isə açıq-aşkar hədə və elementar sağlam düşüncə normalarına, beynəlxalq hüquqa qarşı məsuliyyətsizlik nümayişi idi.

**(ardı 3-cü səhifədə)**




# Qarabağı tərəqqiyə aparan zəfər yolu

(əvvəli 1-ci səhifədə)

Bu dövrdə düşmən ölkənin Azərbaycana qarşı atdığı digər addımlar da onun gələcəkdə bu təxribatlara sadiq qalacağından xəbər verirdi. Prezident İlham Əliyev çıxışlarının birində bu barədə deyib: "Buna görə hər şey bu istiqamətdə gedirdi. Hərbi əməliyyatların başlanmasından əvvəlki hadisələrin xronologiyasına nəzər salsaq, iyul ayında dövlət sərhədində təxribat törədildi, bizim dinc sakinlər və hərbi qulluqçular həlak oldular, avqust ayında ermənilər tərəfindən göndərilmiş təxribat qrupu Goranboy rayonunda zərərsizləşdirildi, sentyabr ayında nələrin olması isə artıq hamıya məlumdur".

Vətən müharibəsinin ilk günündən etibarən Azərbaycan Silahlı Qüvvələrinin vətənpərvər, cəsur və mərd oğulları tərəfindən cəbhədə bir-birinin ardınca uğurlar əldə edilir, düşmənlə təmas xəttində döyüş şücaəti, döyüşçü qətiyyəti göstərilir, xalqımızın illərdən bəri gözlədiyi şanlı qələbə salnaməsinin tarixi səhifələri yazılırdı. Hər bir vətəndaşımızda olan ruh yüksəkliyi, orduya inam, zəfərə əminlik hissi sarsılmaz Azərbaycan Ordusunu yeni-yeni qələbələrə ruhlandırırdı. Hamı Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə silahlı qüvvələrimizin tez bir zamanda qarı düşməni doğma torpaqlarımızdan qovacağına, bizə zəfər bayramı, qələbə sevinci yaşadacağına inanırdı.

Azərbaycan Ordusunun Ermənistan silahlı qüvvələrinə qarşı başladığı əks-hücum əməliyyatı ölkəmizin tam qələbəsi və düşmənin kapitulyasiyası ilə nəticələndi. Bununla da Vətən müharibəsi başa çatdı. Azərbaycan bu döyüşdə parlaq qələbə qazandı, işğal altındakı torpaqlarımızı düşməndən təmizlədi. Müzəffər ordumuzun hər bir əsgəri, hər bir zabiti müharibədə qəhrəmancasına döyüşdü, qəsbkarın torpaqlarımızdan qovulmasında müstəsna xidmətlər göstərdi, yaralandı, öz həyatını risk altına atdı, lakin məqsədi uğrunda inadından dönmədi, əzmlə, cəsarətlə zəfər yürüşünü son nəticəyə qədər davam etdirdi.

Azərbaycanın işğal altında olan ərazisinin böyük bir hissəsi, o cümlədən, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonları, Şuşa şəhəri, Hadrut qəsəbəsi, ümumiyyətlə, 300-ə yaxın yaşayış məntəqəsi düşməndən təmizləndi. Nəhayət, Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik məharəti ilə idarə etdiyi silahlı qüvvələrin zəfər yürüşü siyasi müstəvidə qazanılan qələbə ilə yekunlaşdı.

İşğaldan azad edilən Şuşanın xilas günü isə heç zaman unudulmayacaq. Xalqımızın tarixində, bəlkə də, bu, ən xoşbəxt günlərdən biri idi. Azərbaycan Prezidenti İlham Əliyev Şuşanın azad olunmasından neçə ay sonra müsahibələrinin birində bu barədə deyirdi: "Əslində, artıq noyabrın 7-də biz əmin idik ki, Şuşa azad ediləcək. Hələ bəzi yerlərdə hərbi əməliyyatlar gedirdi, lakin artıq noyabrın 8-nə keçən gecə biz elan etdik ki, Şuşa azad olunub və səhər mən bu müraciəti etdim. Çünki hər şey hələ çox təzə idi və hisslər qamması aşıb-daşırdı. Əlbəttə, Şəhidlər xiyabanını, atamın məzarını ziyarət edəndə, ilk növbədə, qürur duyurdum, – mən ona əsgəri salam verdim və tarixi missiyamı yerinə yetirməyim, onun vəsiyyətinə əməl etməyim barədə məruzə etdim, qürur hissi keçirirdim, həm də təəssüflənirdim ki, atam bunu görmədi. Lakin məndə bir daxili əminlik vardı ki, yəqin onun ruhu bizimlədir və qəlbən sevinir".

Dövlətimizin başçısı həmin müsahibəsində daha sonra bildirirdi ki, Şuşanın azadlığa qovuşması ilə Ermənistan ordusunun, necə deyərlər, beli qırıldı, düşmən mənəviyyatca sarsıldı. Aydın idi ki, Şuşanın xilasından sonra Laçın dəhlizində olduğumuz şəraitdə işğal altında qalan digər ərazilərin taleyi, əslində, həllini tapmışdı: "Lakin görünür, Ermənistan tərəfi də bunu başa düşmüşdü və gec də olsa məğlubiyyəti barədə qərar qəbul etdi... Mən atamın məzarını ziyarət edəndə bu cür hisslər keçirirdim – həm onun, həm tarixin, həm də xalqın qarşısında yerinə yetirilmiş borc hissi".

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev noyabrın 8-də xalqımızı Şuşanın işğaldan azad olunması münasibətilə təbrik edəndə də xalqımızın bu qədim şəhərimizi ürəkdən sevdiyini, onun xilasından qürurlandığını vurğulayaraq, qədim mədəniyyət paytaxtımızın Azərbaycan tarixində xüsusi yer tutduğunu, azərbaycanlıların əsrlər boyu burada yaşayıb-yaratdıqlarını bildirdi. Dövlətimizin başçısı daha sonra əlavə etdi ki, Şuşa nəinki Azərbaycanın, bütün Qafqazın incisidir. Ancaq mənfur düşmən Şuşanı işğal altında saxlamaqla bizim mədəni irsimizə böyük zərbə vurdu, bizim tarixi abidələrimizi, məscidlərimizi dağıtdı, təhqir etdi. Biz indi Şuşaya qayıtmışıq.

Bütün tarixi abidələrimizi, məscidlərimizi bərpa edəcəyik, 28 ildən sonra Şuşada yenə də azan səsi eşidiləcək: "Bir neçə il bundan əvvəl – 2016-cı ilin Aprel döyüşlərindən sonra işğaldan azad edilmiş Cocuq Mərcanlı qəsəbəsində mənim göstərişimlə tikilmiş məscidin açılışında bəyan etmişdim ki, bu məscid Şuşa məscidinin bənzəridir, ölçülərinə, memarlıq üslubuna görə eynidir. Demişdim ki, gün gələcək, biz Şuşa şəhərində erməni vandalları tərəfindən dağıdılmış məscidlərimizi bərpa edəcəyik və bu gün gəlir. Bu gün Azərbaycan bayrağı Şuşada dalğalanır. Bu gün bütün Azərbaycan xalqı qürur hissi ilə bu xoş xəbəri qarşılayır".

Vətən müharibəsində Azərbaycan Ordusu qarşısında duruş gətirə bilməyəcəyini, iflasa məhkum olduğunu anlayan düşmən məğlubiyyətini etiraf etmək məcburiyyətində qaldı.

Nəticədə ötən il noyabrın 10-da Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin imzaladıqları üçtərəfli bəyanat 30 ildən artıq davam edən münaqişəyə, Azərbaycan torpaqlarının işğalına son qoydu, Cənubi Qafqaz bölgəsinin gələcək inkişafına yönələn fəaliyyətin yeni formatını şərtləndirdi. Bəyanatın müddəalarına uyğun olaraq, Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların dayandırılması elan edildi, dekabrın 1-dək Kəlbəcər, Ağdam və Laçın rayonlarının mərhələ-mərhələ Azərbaycan Respublikasına qaytarılması qərara alındı.

Vətən müharibəsində qazanılan qələbədən ötən bir il ərzində Qarabağda genişmiqyaslı tikinti işlərinə başlanılıb, qısa müddətdə ərazilərin minalardan təmizlənməsi, bərpa və yenidənqurma layihələrinin icrası, lazımi infrastrukturun yaradılması istiqamətlərində mühüm tədbirlər reallaşdırılıb. Şuşada mədəniyyət abidələrinin bərpası, Füzuli aeroportunun istifadəyə verilməsi, yol infrastrukturunun işə düşməsi Azərbaycan dövlətinin quruculuq niyyətini və gücünü dünyaya nümayiş etdirib.

Gələn ilin büdcəsinin prioritet xərclərində də işğaldan azad olunan ərazilərin bərpası və yenidən qurulması ön sırada dayanır. Hazırda mənfur düşmənin uzun illər ərzində viran qoyduğu yurdlarımıza yeni nəfəs verilir, avtomobil və dəmiryolları çəkilir, elektrik, qaz, su təchizatı və kənd təsərrüfatı infrastrukturları qurulur, tarixi, mədəni, dini irsimiz bərpa olunur, beynəlxalq hava limanları tikilir.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2021.-18 noyabr.- S.1;3.